**“Sudan istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 168 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sudan istifadə Qaydaları" təsdiq edilsin (əlavə olunur).

*2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.*[1]

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 17 iyul 2014-cü il
№ 262

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 17 iyul tarixli 262 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Sudan istifadə**

**QAYDALARI**

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və su təchizatı və kanalizasiya sistemlərindən (sudan) istifadə sahəsində su təchizatı və kanalizasiya müəssisəsi ilə istehlakçı arasında qarşılıqlı münasibətləri və bununla əlaqədar digər məsələləri tənzimləyir.

1.2. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **su təchizatı və kanalizasiya müəssisəsi** (bundan sonra - STKM) – mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəyyən ərazi (zona) hüdudlarında su təchizatını və tullantı sularının axıdılmasını təmin edən hüquqi şəxsdir;

1.2.2. **istehlakçı** – STKM-in xidmətlərindən istifadə edən hüquqi və ya fiziki şəxsdir;

1.2.3. **məişət (təsərrüfat)-içməli su** – yaşayış məntəqəsində yaşayan əhalinin və sənaye müəssisələri işçilərinin məişət (təsərrüfat) və içmək məqsədləri üçün istifadə etdikləri sudur;

1.2.4. **istehsalat məqsədli su** – istehsalat, sənaye, texnoloji və digər texniki məqsədlər üçün istifadə olunan sudur;

1.2.5. **tullantı suları** – istehlakçıların istifadə edilərək çirkləndirdiyi, sənaye texnologiyası ilə əlaqədar olaraq çirklənmiş sular, həmçinin yaşayış məntəqəsində insanların fizioloji qalıqları (ifraz maddələri) ilə qarışmış mayelər, baş vermiş qəzalar zamanı ətraf mühitə və kanalizasiya sisteminə atılan şərti təmiz sulardır;

1.2.6. **su təchizatı sistemi** – suyu mənbədən götürən, təmizləyən və istehlakçıya çatdıran bir və ya bir qrup qurğu, o cümlədən magistral (ümumiləşdirilmiş) və paylayıcı (daxili) su kəmərləri (xətləri) şəbəkəsidir;

1.2.7. **kanalizasiya sistemi** – yaşayış məntəqəsində və ya sənaye müəssisələrinin fəaliyyəti nəticəsində əmələ gələn tullantı sularını tullantıları təmizləyən məntəqəyə nəql etdirən şəbəkədir;

1.2.8. **balans mənsubiyyəti sərhədi** – STKM tərəfindən suyun istehlakçıya çatdırılma məntəqəsində STKM və istehlakçı arasında müqavilə ilə su təchizatı və kanalizasiya sisteminin balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsidir.

1.3. Bu Qaydaların heç bir müddəası istehlakçının mənafeyini ağırlaşdıran formada təfsir edilə bilməz.

1.4. Bu Qaydalara uyğun olaraq, hər bir istehlakçının su təchizatı və tullantı sularının axıdılması sistemlərindən (bundan sonra – STTSAS) istifadə etmək hüququ vardır.

1.5. İstehlakçıların STTSAS-a qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tənzimlənir.

1.6. STKM tərəfindən göstərilən su təchizatı və tullantı sularının axıdılması xidmətləri üçün istehlakçı ilə STKM arasında bağlanılmış alqı-satqı müqaviləsinə (bundan sonra – müqavilə) əsasən həyata keçirilir.

1.7. Müqavilələr fiziki şəxslərlə bu Qaydaların 1 nömrəli əlavəsinə, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə isə bu Qaydaların 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formalara uyğun bağlanılmalıdır. Müqaviləyə STKM ilə istehlakçı arasında su təchizatı və kanalizasiya sisteminin balans mənsubiyyəti sərhədini müəyyən edən və bu Qaydaların 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun tərtib edilən akt əlavə edilir.

1.8. Tikintisi başa çatmış çoxmənzilli yaşayış binalarının mənzil mülkiyyətçiləri ilə fərdi müqavilələr daxili təchizat sistemi texniki şərtlərə uyğun qurulduqdan sonra, digər kateqoriyalı istehlakçılarla isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həmin istehlakçıların STTSAS-a qoşulmasını təsdiq edən qoşulma aktı tərtib edilərək imzalandıqdan sonra bağlanılmalıdır.

1.9. STKM-in və istehlakçının bu Qaydalara əsasən müəyyənləşdirilən vəzifələri və hüquqları, habelə istehlakçılara verilən suyun keyfiyyəti (tərkibi və təchizatın etibarlılığı), həcmi, dəyərinin ödəmə şərtləri və digər məsələlər müqavilədə göstərilir.

1.10. STKM onun təqsiri üzündən baş verən hadisələr istisna olmaqla, su magistral kəmərindən istehlakçının paylayıcı şəbəkəsinə verildikdən sonra suyun keyfiyyətinin dəyişməsinə görə məsuliyyət daşımır.

1.11. Texniki su kəməri şəbəkəsi ilə əhatə olunmamış ərazilərdə içməli sudan texnoloji proseslərdə

(yaşıllıqların suvarılması, avadanlığın soyudulması, nəqliyyat vasitələrinin yuyulması, beton qarışıqlarının hazırlanması və s.) istifadə edilməsinə yalnız istehlakçının müraciətinə əsasən texniki şərtlərə uyğun olaraq STKM-in icazəsi ilə yol verilir.

1.12. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, digər hallarda STKM-in qanuni istehlakçısı olmayan üçüncü şəxsi su ilə təmin etməsi və ya sudan istifadəyə icazə verməsi qadağan edilir.

## 2. STKM-in vəzifələri

2.1. STKM-in vəzifələri aşağıdakılardır:

2.1.1. balansında olan su təchizatı və kanalizasiya sistemlərinin və qurğularının lazımi səviyyədə istismarı, təmiri, saxlanması və mühafizəsini təmin etmək;

2.1.2. istehlakçını müqavilədə göstərilən keyfiyyətdə və həcmdə su ilə təmin etmək;

2.1.3. fiziki şəxs olan istehlakçılar istisna olmaqla, digər istehlakçıların istismarında olan su qurğularına 6 (altı) ayda bir dəfədən az olmayaraq texniki baxış keçirilməsini təmin etmək, nəticələrini 2 nüsxədən ibarət aktla rəsmiləşdirmək və aktın bir nüsxəsini istehlakçıya təqdim etmək;

2.1.4. istehlakçıya verilən suyun və axıdılan tullantı sularının həcminin və dəyərinin, həmçinin istismarda olan su təchizatı və kanalizasiya sistemlərinin tam və dəqiq uçotunu aparmaq;

2.1.5. istehlakçıya verilən suyun və axıdılan tullantı sularının həcmini smart-kart tipli olmayan suölçən cihazın göstəricilərinə əsasən, suölçən cihaz quraşdırılmadıqda isə bu Qaydaların 7.2-ci bəndinə uyğun olaraq müəyyənləşdirmək;

2.1.6. verilən suyun və axıdılan tullantı sularının həcminə uyğun olaraq hər ay istehlakçıya ödəməli olduğu vəsaitin həcmini əks etdirən hesabı təqdim etmək (göndərmək);

2.1.7. istehlakçının suölçən cihazını onun texniki pasportunda göstərilmiş müddətdə ödənişsiz qaydada növbəti dövlət yoxlamasından keçirmək;

2.1.8. istehlakçının təqsiri olmadan zədələnən suölçən cihazı ödənişsiz qaydada təmir etmək və dövlət yoxlamasından keçirmək, həmin suölçən cihazı təmir etmək mümkün olmadıqda isə onu ödənişsiz qaydada başqası ilə dəyişdirmək;

2.1.9. aşağıdakı hallarda suyun verilməsinin dayandırılacağı barədə istehlakçıya yazılı bildiriş təqdim etmək (göndərmək):

2.1.9.1. quraşdırılmış suölçən cihaz dövlət standartlarının tələblərinə cavab vermədikdə;

2.1.9.2. verilən suyun və axıdılan tullantı sularının həcminə uyğun olaraq tərtib edilmiş hesab istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait 1 (bir) ay müddətində tam ödənilmədikdə;

2.1.9.3. STKM ilə müqavilə bağlanılmadıqda.

*2.2. STKM-in səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.*[2]

## 3. STKM-in hüquqları

3.1. STKM-in hüquqları aşağıdakılardır:

3.1.1. STTSAS-a qanunsuz (özbaşına) qoşulma halları aşkar edildikdə, bir nüsxəsi istehlakçıya təqdim olunan akt tərtib etməklə və qanunsuz qoşulmanı dərhal su və kanalizasiya sistemindən ayırmaqla, su təchizatı və kanalizasiya şəbəkəsindən istifadəni dayandırmaq və dəymiş ziyanın ödənilməsini təqsirkar şəxsdən tələb etmək;

3.1.2. smart-kart tipli olmayan suölçən cihaz quraşdırılmış və ya suölçən cihaz quraşdırılmamış istehlakçıdan verilən suyun və axıdılan tullantı sularının həcminə uyğun olaraq təqdim edilmiş hesabın ödənilməsini tələb etmək.

## 4. İstehlakçıların vəzifələri

4.1. İstehlakçıların vəzifələri aşağıdakılardır:

4.1.1. su təchizatı və kanalizasiya xidmətlərindən və sudan istifadə etmək üçün STKM ilə müqavilə bağlamaq;

4.1.2. STKM ilə bağlanılmış müqavilənin şərtlərini yerinə yetirmək;

4.1.3. bu Qaydaların tələblərinə əsasən, verilən suyun və axıdılan tullantı sularının həcminə uyğun olaraq ona təqdim edilmiş hesab üzrə ödənişin həyata keçirilməsini təmin etmək;

4.1.4. suölçən cihazları onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar etmək;

4.1.5. istehlakçılara məxsus binalarda, mənzillərdə, fərdi yaşayış evlərində, həyətyanı sahələrdə quraşdırılmış suölçən cihazların işlək vəziyyətdə saxlanılmasını, o cümlədən üzərindəki plombların toxunulmazlığını təmin etmək;

4.1.6. hüquq təsdiqedici sənədlər (xidməti vəsiqə və s.) əsasında STKM-in səlahiyyətli nümayəndələrini vəzifə borclarını yerinə yetirmək məqsədi ilə maneəsiz olaraq istehlakçıya məxsus əraziyə buraxmaq;

4.1.7. suölçən cihazlar və ya onlara vurulmuş plomblar hər hansı səbəbdən zədələndikdə (xarab olduqda), növbəti iş günündən gec olmayaraq, bu barədə STKM-i xəbərdar etmək.

## 5. İstehlakçıların hüquqları

5.1. İstehlakçıların hüquqları aşağıdakılardır:

5.1.1. qanunsuz qoşulma ilə əlaqədar tərtib olunmuş akt və onun məzmunu barədə öz mülahizələrini, izahatlarını təqdim etmək, habelə aktı imzalamaqdan imtina etmək;

5.1.2. su təchizatı və kanalizasiya xidmətləri və sudan istifadə üçün müqavilə bağlanılmasını tələb etmək;

5.1.3. müqavilə öhdəliklərinin icrasını tələb etmək;

5.1.4. müqavilədə və mülki qanunvericilikdə göstərilmiş hallarda və qaydada müqavilə öhdəliyinin icrasından birtərəfli qaydada imtina etmək;

5.1.5. verilən suyun və axıdılan tullantı sularının və buna görə ödənilməli olan vəsaitin həcmini əks etdirən hesabın təqdim edilməsini, dəqiqləşdirilməsini, yol verilmiş qeyri-dəqiqliyin aradan qaldırılmasını və ya yenidən hesablama aparılmasını tələb etmək;

5.1.6. tələbatına görə keyfiyyət standartlarına uyğun məişət (təsərrüfat)-içməli su ilə təmin olunmaq;

5.1.7. tullantı sularının fasiləsiz axıdılmasını tələb etmək;
5.1.8. STKM-in balansında olan STTSAS-da baş vermiş qəzaların, nasazlıqların aradan qaldırılmasını tələb etmək.

## 6. Suölçən cihazların quraşdırılması və istismarı

6.1. STKM ilə istehlakçı arasında suyun sərfinə görə hesablaşmanın aparılması üçün balans mənsubiyyəti sərhədində Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)* tərəfindən tipi təsdiq edilərək dövlət reyestrinə daxil edilmiş və sertifikatlaşdırılmış, üzərində *Xidmətin* və STKM-in plombu olan müvafiq suölçən cihaz quraşdırılır. Həmin tələblərə cavab verməyən suölçən cihazların və digər ölçmə vasitələrinin quraşdırılması qadağandır.[3]
6.2. Yaşayış binalarının mənzillərindəki suölçən cihazlar yaşayış binasının girişində, yaxud pilləkən qəfəslərində quraşdırılır.
6.3. Yaşayış binalarının mənzillərində yerləşən su dayaqlarının və suölçən cihazların pilləkən qəfəslərində STKM tərəfindən quraşdırılması ilə daxili su təchizatı sistemlərinin yenidən qurulması işləri icra olunmalıdır.
6.4. Yaşayış binalarının girişində və pilləkən qəfəslərində quraşdırılmış suölçən cihazların işlək vəziyyətdə saxlanılmasına, o cümlədən üzərindəki plombların toxunulmazlığına STKM, mənzillərdə, fərdi yaşayış evlərində və həyətyanı sahələrdə quraşdırılmış suölçən cihazların işlək vəziyyətdə saxlanılmasına, o cümlədən üzərindəki plombların toxunulmazlığına isə istehlakçı cavabdehlik daşıyır.
6.5. İstehlakçıların suölçən cihazlarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi fiziki şəxs olan istehlakçılara münasibətdə STKM-in vəsaiti hesabına, hüquqi şəxs olan istehlakçıya münasibətdə isə istehlakçının öz vəsaiti hesabına həyata keçirilir. Suölçən cihaz quraşdırılmış sahənin (obyektin) sonradan hər hansı şəxsin istifadəsinə (icarəsinə) verilməsi suölçən cihazın çıxarılması (dəyişdirilməsi) üçün və ya STKM tərəfindən onun quraşdırılmasına çəkilmiş xərcin ödənilməsinin həmin şəxsdən tələb olunması üçün əsas deyildir.
6.6. Suölçən cihazlar *Xidmətin* müəyyən etdiyi dövlət standartlarının tələblərinə uyğun olaraq STKM tərəfindən dövlət yoxlamasından keçirilir. [4]
6.7. Suölçən cihazların növbəti dövlət yoxlaması onların texniki pasportlarında göstərilmiş müddətdə həyata keçirilir.
6.8. Suölçən cihazın dövlət yoxlaması istehlakçının arzusu ilə və ya istehlakçının təqsiri səbəbindən həyata keçirildikdə istehlakçının, digər hallarda isə STKM-in vəsaiti hesabına həyata keçirilir.
6.9. Yaşayış binalarının girişində və pilləkən qəfəslərində quraşdırılmış suölçən cihazların göstəricilərinə sərbəst şəkildə baxılmasına şərait olmalıdır və həmin cihazların üzərindəki plomblar onların toxunulmazlığının təmin edilməsi məqsədi ilə STKM tərəfindən örtüklə örtülməlidir.
6.10. Zədələnmiş suölçən cihazın (hesablama mexanizmlərinin sıradan çıxması, baxış pəncərəsinin sınması, üzərindəki plombların qırılması, texniki nasazlıqlar və s.) təmir olunması, dövlət yoxlamasından keçirilməsi, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması bu barədə müraciət edildiyi və ya belə halların aşkar olunduğu gündən sonra ən geci 15 (on beş) iş günü müddətində bu Qaydaların tələblərinə uyğun olaraq STKM tərəfindən həyata keçirilir. İstehlakçının təqsiri olmadan zədələnmiş suölçən cihazın təmir olunması, dövlət yoxlamasından keçirilməsi, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması bu Qaydaların 6.5-ci bəndinə uyğun olaraq, zədələnmə istehlakçının təqsiri üzündən baş verdikdə isə istehlakçının vəsaiti hesabına STKM tərəfindən həyata keçirilir.
6.11. Suölçən cihazın sərfiyyat yükləmə kartı itirildikdə və ya zədələndikdə kartın yenisi ilə əvəzlənməsi (dəyişdirilməsi) istehlakçının vəsaiti hesabına aparılır.
6.12. Hər hansı səbəbdən istismara yararsız smart-kart tipli suölçən cihazın və ya sərfiyyat yükləmə kartının istifadə olunmamış sərfiyyat göstəriciləri yeni veriləcək kartın balansına köçürülür.
6.13. Hüquqi şəxs olan istehlakçılar tərəfindən suölçən cihazın təmiz saxlanılmasına, avadanlığın qorunmasına, donvurmanın qarşısının alınmasına, su sayğacı və su xəttindəki siyirtmə, süzgəc üzərindəki plombların toxunulmazlığına cavabdeh olan şəxs müəyyən edilir.
6.14. Suölçən cihazların göstəricilərində istehlakçının təqsiri səbəbindən uyğunsuzluq (səhv) müəyyən edildikdə və (və ya) suölçən cihazların plombu zədələndikdə, istehlakçının vəsaiti hesabına suölçən cihazların növbədənkənar dövlət yoxlaması keçirilməlidir.
6.15. Suölçən cihaza müdaxilə və pozuntu (suölçən cihazın göstəricilərinin xətasının *Xidmətin* müəyyən etdiyi normalardan artıq olması) halları aşkar edildikdə, STKM suölçən cihazın sonuncu dəfə göstəricilərinin qeyd edilməsindən sonrakı dövr üçün sərf edilmiş suyun həcmini aşağıdakı qaydada müəyyənləşdirir və hesablaşma aparır:
6.15.1. istehlakçının müdaxiləsi halında bu Qaydaların 4 nömrəli əlavəsinə uyğun olaraq;
6.15.2. pozuntu (suölçən cihazın göstəricilərinin xətasının *Xidmətin* müəyyən etdiyi normalardan artıq olması) aşkar edildikdə isə istehlakçının əvvəlki 12 (on iki) aylıq dövrdə (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) istifadə etdiyi orta istehlak normasına əsasən.
6.16. Su təchizatı qurğularının, suölçən cihazın və onun üzərindəki plombun zədələnməsi halları aşkar olunduqda, habelə STKM-in nümayəndəsinin suölçən cihaza baxmasına istehlakçı tərəfindən lazımi şərait yaradılmadıqda, müvafiq akt tərtib edilir. Aktın bir nüsxəsi istehlakçıya təqdim edilir.
6.17. Tərtib edilmiş akta əsasən istehlakçının təqsiri üzündən STKM-ə maddi zərər vurulması müəyyən edildikdə, dəymiş ziyan hesablanaraq istehlakçıya ödəniş sənədi təqdim edilir.
*6.18. STKM-in səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin su sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar su təchizatı və ya kanalizasiya sisteminə qanunsuz qoşulma (su təchizatı və kanalizasiya müəssisəsinin razılığı olmadan sistemə qoşulma) hallarını müəyyən etdikdə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.*[5]

## 7. Suyun və kanalizasiya sisteminə axıdılan tullantı sularının uçotu və ödəmə şərtləri

7.1. Suyun və kanalizasiya sisteminə tullantı sularının axıdılmasının pərakəndə satış qiyməti (tarifləri) Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tənzimlənir.
7.2. STKM smart-kart tipli olmayan suölçən cihaz quraşdırılmış istehlakçıya ötən ay ərzində verdiyi suyun həcmini belə cihazın göstəricilərinə əsasən tam hesablamalı və hər ay istehlakçıya buna görə ödənilməli olan vəsaitin həcmini əks etdirən hesab təqdim etməlidir (göndərməlidir). Su sərfi haqqında

məlumatın təqdim edilməsini STKM ilə bağlanılmış müqaviləyə əsasən istehlakçının özü də həyata keçirə bilər.

7.3. Smart-kart tipli suölçən cihaz quraşdırılmış istehlakçıya istifadə etdiyi suyun həcmi haqqında STKM tərəfindən hesab təqdim edilməsi (göndərilməsi) tələb edilmir.

7.4. Əhali qrupuna aid olan istehlakçılara suölçən cihaz quraşdırılmadıqda, verilmiş suyun və axıdılmış tullantı sularının və buna görə ödənilməli olan vəsaitin həcmi istehlakçıya məxsus mənzildə (fərdi yaşayış evində) qeydiyyatda olan şəxslərin sayına uyğun olaraq müvafiq dövr üzrə aparılan hesablama yolu ilə müəyyənləşdirilir. Qeydiyyatda olan şəxslərin sayı barədə sənəd istehlakçı tərəfindən təqdim olunmalıdır. Belə mənzildə (fərdi yaşayış evində) qeydiyyatda olan şəxslərin sayında dəyişikliklər olduqda, istehlakçı bu faktı təsdiq edən sənədi ən geci 7 (yeddi) iş günü müddətində STKM-ə təqdim etməlidir. STKM hesablamanı sənəd təqdim edildiyi gündən sənəddə göstərilən məlumata uyğun aparmalıdır. Qeydiyyatda olan şəxslərin sayı barədə sənəd istehlakçı tərəfindən təqdim etmədikdə su təchizatı və tullantı suları barədə hesabat ölkə üzrə ailə tərkibinin müəyyənləşdirilmiş orta statistik say tərkibinə uyğun olaraq aparılır.

7.5. Suölçən cihazlar olmadıqda, fərdi yaşayış və bağ evlərinin həyətyanı torpaq sahələrində təsərrüfat məqsədləri üçün istifadə edilən suyun həcmi mövcud texniki qaydalara uyğun olaraq hesablanır. Digər istehlakçılara suölçən cihaz quraşdırılmadıqda, verilmiş suyun və axıdılmış tullantı sularının həcmi və buna görə ödənilməli vəsaitin həcmi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının qərarında nəzərdə tutulmuş qaydada müvafiq dövr üzrə aparılan hesablama yolu ilə müəyyənləşdirilir.

7.6. Verilmiş suyun və axıdılmış tullantı sularının hesabı istehlakçı tərəfindən tam ödənildikdən sonra, STKM tərəfindən hesablamada yol verilmiş səhvə görə əlavə vəsaitin ödənilməsi istehlakçıdan tələb edilə bilməz.

7.7. İstehlakçının müraciəti və ya STKM-in təşəbbüsü əsasında bu Qaydaların 7.2-ci bəndinə uyğun olaraq istehlakçıya göndərilmiş (təqdim edilmiş) hesaba yenidən baxıla bilər. Fərq müəyyən olunduqda, qarşılıqlı razılaşma əsasında hesabda müvafiq düzəliş aparılır. Aparılmış düzəlişdən sonra keçmiş dövrlərə aid fakturaların ƏDV hesabatında dəqiqləşmə aparılır.

7.8. İstehlakçı STKM-in nümayəndəsinin suölçən cihaza baxmasına şərait yaratmadıqda, sərf edilmiş suyun həcmi istehlakçının əvvəlki 12 (on iki) aylıq dövrdə (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) istifadə etdiyi orta istehlak normasına əsasən hesablama yolu ilə müəyyənləşdirilir. Əvvəlki 12 (on iki) aylıq dövrdə istifadə edilmiş orta istehlak normasına əsasən aparılmış hesabatlara sonradan müəyyən olunmuş suölçən cihazın faktiki göstəricisinə uyğun olaraq düzəliş aparılır. Düzəliş nəticəsində istehlakçının artıq ödədiyi məbləğ növbəti hesabatlarda nəzərə alınır və ya istehlakçıya geri qaytarılır.

7.9. Suölçən cihaz yararsız vəziyyətə düşdükdə, yeni suölçən cihaz quraşdırılanadək istifadə olunan suyun həcmi, bundan əvvəlki 12 (on iki) ayda (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) sərf olunmuş suyun orta aylıq sərfi həcmində təyin edilir.

7.10. İstehlakçının eyni və yaxud ayrı-ayrı ərazilərdəki müxtəlif tarif qruplarına məxsus olan obyektləri üzrə verilən suya və axıdılan tullantı sularına görə hesablaşmalar onların hər birinin aid olduğu istehlakçı qrupu üçün müəyyən olunmuş tarifə uyğun aparılır. Bir ünvanda verilən suya və axıdılan tullantı sularına görə yaranmış borcla əlaqədar istehlakçıya məxsus borcu olmayan digər sahələrin su təchizatı və tullantı sularının axıdılması xidməti borc tam ödənilənədək dayandırıla bilər.

7.11. İstehlakçı bu Qaydaların 7.2-ci bəndinə uyğun olaraq ona göndərilmiş (təqdim edilmiş) hesabda səhvə (səhvlərə) yol verildiyi (ödənilməli olan vəsaitin artıq hesablandığı) qənaətinə gələrsə, hesabı aldıqdan sonra ən geci 10 (on) iş günü müddətində hesabı təqdim etmiş STKM-ə yazılı şəkildə müraciət edə bilər.

7.12. STKM bu Qaydaların 7.11-ci bəndinə əsasən daxil olmuş müraciətə ən geci 5 (beş) iş günü müddətində baxaraq, istehlakçıya yazılı cavab verməlidir. Ərizə əsaslı hesab edildikdə, artıq hesablanmış vəsait növbəti ödənişlərdə nəzərə alınır və ya istehlakçıya geri qaytarılır.

7.13. İstifadə olunan suyun və axıdılan tullantı sularının dəyəri bank, poçt, internet və ya POS-terminal vasitəsilə ödənilir.

7.14. Bu Qaydaların 7.2-ci bəndinə uyğun olaraq istehlakçıya göndərilmiş (təqdim edilmiş) hesab üzrə ödənişlər həmin hesab istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra 1 (bir) ay müddətində tam həyata keçirilməlidir. Həmin müddət gecikdirildikdə, müqavilədə nəzərdə tutulduğu hallarda istehlakçı əsas borc məbləği ilə yanaşı, müqavilənin şərtlərinə uyğun olaraq dəbbə pulunu (cərimə, penya) da ödəməlidir.

7.15. İstehlakçı bu Qaydaların 7.2-ci bəndinə uyğun olaraq ona göndərilmiş (təqdim edilmiş) hesab üzrə gecikdirilmiş ödənişləri (qalıq borclarını) STKM ilə qarşılıqlı razılaşma əsasında hissə-hissə ödəyə bilər. Bu zaman əhali qrupuna aid olan istehlakçılar istisna olmaqla, digər istehlakçılara müqavilədə nəzərdə tutulmuş qaydada gecikmiş ödəmələr (qalıq borclar) üzrə dəbbə pulu tətbiq edilir.

7.16. Bu Qaydaların 7.14-cü bəndində nəzərdə tutulmuş müddət gecikdirildikdə, STKM vaxtı keçmiş ödənişlərin məbləğini istehlakçının akkreditiv hesabından silə bilər. Akkreditiv hesabın məbləği borcların ödənilməsinə kifayət deyildirsə, STKM borcların ödənilməməsi məsələsini məhkəmə qaydasında həll edə bilər.

7.17. Akkreditivin məbləği göstərilmiş xidmətlərə görə borclar həcmində azalarsa, onda istehlakçı STKM-in tələbinə əsasən akkreditivin depozit məbləğini nəzərdə tutulmuş səviyyəyə qədər çatdırmalıdır.

7.18. Akkreditivin məbləği aylıq xidmətlərə görə bütün ödənişlərin cəminin iki misli səviyyəsində müəyyənləşdirilir. Orta aylıq ödənişlərin hesabatı, istehlakçının daxil olduğu kateqoriyanın istifadə normalarını da nəzərə almaqla, əvvəlki 6 (altı) ayın istehlakının orta qiymətinə və ya suölçən cihazın göstəricilərinə əsasən aparılır.

7.19. Akkreditivin məbləği STKM-in razılığına əsasən hissə-hissə keçirilə bilər.

7.20. STKM suölçən cihaz quraşdırılmış hər bir istehlakçının adına, müqavilə bağlanıldığı gündən fərdi hesab açır.

7.21. İstehlakçı ödəyicinin adı, hüquqi ünvanı, fəaliyyət növü, təsisçisi (təsisçiləri) dəyişdikdə, STKM-i yazılı xəbərdar etməli və zərurət yarandıqda, STKM ilə qarşılıqlı hesablaşmalarda dəyişiklik olan tarixə üzləşmə aktının tərtib edilməsi barədə müraciət etməlidir.

7.22. Yaşayış binalarında, fərdi yaşayış evlərində, obyektlərdə yanğınların söndürülməsində, habelə taktiki təlimlərdə, yanğın hidrantlarının və daxili yanğın kranlarının işinin yoxlanılmasında sərf edilmiş suyun həcminin dəqiqləşdirilməsi məqsədi ilə yanğından mühafizə orqanlarının və STKM-in nümayəndələrinin iştirakı ilə birgə akt tərtib edilir.

7.23. Yanğının söndürülməsinə sərf edilən suyun həcmi yanğından mühafizə orqanları tərəfindən STKM-ə təqdim edilmiş sənədlər əsasında hesablanır.

7.24. Yaşayış və ictimai binalarda kanalizasiya şəbəkəsinə daxil olan tullantı sularının uçotu suölçən cihazın göstəricilərinə, suölçən cihaz olmadıqda isə bu Qaydaların 7.1-ci, 7.2-ci və 7.7-ci bəndlərinə uyğun olaraq istifadə edilən suyun həcminə görə aparılır.

7.25. Kanalizasiya şəbəkəsinə axıdılan istehsalat tullantı sularının uçotu müəssisənin su təsərrüfatı pasportunun və (və ya) suölçən cihazının göstəricisinə əsasən hesablanır. Suölçən cihaz və ya su təsərrüfatı pasportu olmadıqda, axıdılan tullantı suyunun həcmi verilən içməli suyun həcmi ilə bərabər götürülür.

7.26. İstehsalat və təsərrüfat-məişət ehtiyacları üçün su alternativ mənbələrdən götürülərsə, suölçən cihaz olmadıqda kanalizasiya şəbəkəsinə atılan tullantı sularının həcmi hesabat əsasında STKM ilə istehlakçılar arasında bağlanılmış müqaviləyə əsasən müəyyənləşdirilir.

7.27. STKM göstərdiyi xidmətlərin müvafiq qaydada ödənilməsi şərtilə leysan axarları vasitəsilə suların axıdılması üçün yol xidməti müəssisələri ilə müqavilə bağlaya bilər.

7.28. STKM leysan axarları vasitəsilə suların axıdılması üçün göstərdiyi xidmətlərin dəyərini aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş iqlim yağıntı normalarına uyğun hesablayıb yol xidməti müəssisələrinə (istehlakçıya) təqdim edir.

## 8. İstehlakçıya suyun verilməsinin dayandırılmasının əsasları və müqavilənin ləğv edilməsi

8.1. STKM "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı hallarda istehlakçıların su təchizatını istehlakçını mütləq qaydada *(bu Qaydaların 8.1.9-cu yarımbəndində nəzərdə tutulan hal istisna olmaqla)* xəbərdar etmək şərtilə dayandıra bilər:[6]

8.1.1. istehlakçının müvafiq yazılı müraciəti (su təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

8.1.2. tikinti, təmir-profilaktika və qəza işlərinin görülməsinə və su tutarlarının təmizlənməsinə ehtiyac yarandıqda;

8.1.3. su mənbəyində səth sularının bulanıqlıq dərəcəsi artdıqda və ya su hövzəsində fövqəladə ekoloji böhran vəziyyəti yarandıqda;

8.1.4. istehlakçının paylayıcı su kəmərləri şəbəkəsi, su tutarları (su anbarları), qoşulmalar, siyirtmələr, kranlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi dövlət standartlarının tələblərinə cavab vermədikdə;

8.1.5. STKM ilə müvafiq müqavilə bağlanılmadıqda;

8.1.6. məişət (təsərrüfat)–içməli su ehtiyacları üçün nəzərdə tutulmuş magistral su kəmərlərindəki sudan digər məqsədlərlə istifadə olunduqda;

8.1.7. məhkəmənin müvafiq qərarı olduqda;

8.1.8. istifadə edilmiş suyun hesabı istehlakçı tərəfindən bu Qaydaların tələblərinə uyğun olaraq vaxtında və tam ödənilmədikdə;

*8.1.9. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin göstərişləri əsasında.*[7]

8.2. İstehlakçıya suyun verilməsinin dayandırılması *(dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar dayandırma halı istisna olmaqla)* yalnız fərdi qaydada həyata keçirilir. Suyun dəyərini ödəməyən istehlakçıya suyun verilməsinin dayandırılması, suyun dəyərini vaxtında ödəyən istehlakçıların hüquqlarının pozulması ilə nəticələnməməlidir. [8]

8.3. İstehlakçı suyun verilməsinin dayandırılması (su təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) və ya müqavilənin vaxtından əvvəl ləğv olunması (bu Qaydaların 8.4-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla) barədə STKM-ə yazılı müraciət etdikdə, STKM 2 (iki) iş günü müddətində müvafiq olaraq suyun verilməsinin dayandırılması və ya müqavilənin ləğv edilməsi barədə qərar qəbul etməlidir. İstehlakçıya suyun verilməsi həmin qərarın qəbul edildiyi gündən dayandırılmalıdır və istehlakçı sonuncu günədək istifadə etdiyi suyun dəyərini ödəməlidir.

8.4. Su ilə təchiz olunmuş obyektin mülkiyyətçisi (istifadəçisi) dəyişdirildikdə, əvvəlki istehlakçı obyektin mülkiyyətçisi (istifadəçisi) dəyişdirildiyi günədək sudan istifadəyə görə olan borcunu ödəməli, STKM-dən borcunun olmaması barədə arayış almalı və həmin arayışı yeni istehlakçıya təqdim etməlidir. Yeni mülkiyyətçi (istifadəçi) yeni müqavilənin bağlanılması üçün STKM-ə 10 (on) iş günü müddətində yazılı müraciət etməlidir. Yazılı müraciət daxil olduğu gündən 3 (üç) iş günü müddətində yeni mülkiyyətçi (istifadəçi) ilə STKM arasında müqavilə bağlanılmalıdır.

8.5. Su ilə təchiz edilmiş obyektin mülkiyyətçisinin (istifadəçisinin) dəyişdirilməsi suyun verilməsinin dayandırılması üçün əsas deyildir.

8.6. Su təchizatı sisteminə qanunsuz (özbaşına) qoşulma halları aşkar edildikdə, STKM qanunsuz xətti dərhal su təchizatı sistemindən ayırmaqla suyun verilməsini dayandırmalı və dəymiş zərərin ödənilməsini həmin şəxsdən tələb etməlidir.

8.7. Su təchizatı sisteminə qanunsuz (özbaşına) qoşulma halları aşkar edildikdə və belə qoşulmanın tarixini müəyyən etmək mümkün olmadıqda, itirilmiş suyun həcmi bu Qaydaların 4 nömrəli əlavəsinə uyğun olaraq ötən 1 (bir) il müddətinədək hesablanır.

8.8. Suyun verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan, su təchizatı bu Qaydaların 8.1.5-ci və 8.1.8-ci yarımbəndlərinə əsasən dayandırıldıqda su təchizatının dayandırılması və bərpası ilə əlaqədar xərclər istehlakçı tərəfindən ödənildikdən və müvafiq qaydada rəsmiləşdirildikdən sonra1 (bir) iş günü müddətində STKM tərəfindən suyun verilməsi bərpa edilməlidir.

8.9. Suyun verilməsinin dayandırılması və bərpa edilməsi hər bir halda (bu Qaydaların *8.1.2-ci və 8.1.9-cu yarımbəndləri* istisna olmaqla) STKM tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir. [9]

## 9. Kanalizasiya şəbəkə və qurğularından istifadəyə dair xüsusi tələblər

9.1. Tullantı suları yalnız kanalizasiya şəbəkəsi vasitəsilə axıdılmalıdır. İstehsalat tullantı sularının axıdılmasına aid məsələlərin həlli hər bir halda STKM tərəfindən təmin olunmalıdır.

9.2. Şərti təmiz sular təsərrüfat-məişət kanalizasiya sisteminə STKM ilə bağlanılmış müqaviləyə əsasən və kanalizasiya şəbəkələrinin və təmizləyici qurğularının gücü, həmçinin axıdılan suyun həcmi nəzərə alınmaqla axıdıla bilər.

9.3. Kanalizasiya şəbəkəsinin tutulmasının, sıradan çıxmasının və təmizləyici qurğularının işinin pozulmasının qarşısını almaq məqsədi ilə şəbəkəyə aşağıda göstərilənlərin axıdılması qadağandır:

9.3.1. insanların sağlamlığı üçün təhlükə yaradan maddələrin, radioaktiv maddələrin, yoluxucu xəstəxana sularının, həmçinin tərkibində mətbəx və iri bərk təsərrüfat tullantıları, neft məhsulları olan və ya

partlayışa səbəb ola biləcək maddələrin;

9.3.2. temperaturu +40$^{0}$C-dən artıq olan tullantı sularının, soyuducu kondensat sularının, hidroyuyuntudan, hidrotorfdan və quruducu-yığıcı çənlərdən axan suların;

9.3.3. atmosfer yağıntılarını qəbul edən yağış kanalizasiya şəbəkələrinə təsərrüfat-məişət tullantı sularının və tullantı su şəbəkələrinə səth axıntı sularının (kanalizasiya sisteminin yağış kanalizasiya şəbəkələrindən ayrılmış yaşayış məntəqələrində);

9.3.4. kanalizasiya qurğularına xidmət edən işçilərin səhhətinə zərər vuran və təmizləyici qurğularda tullantı sularının bioloji təmizlənməsinin texnoloji prosesini pozan istehlakçıların tullantı sularının.

9.4. Tullantı sularının müntəzəm olaraq STKM-inixtisaslaşdırılmış laboratoriyasında analizi aparılmalıdır. Analizin xərcləri onun nəticəsinə görə tullantı sularının tərkibindəki çirkləndirici maddələrin miqdarı yol verilən qatılıq həddindən artıq olduqda və ya analiz istehlakçının arzusu ilə aparıldıqda istehlakçının, qalan hallarda isə STKM-in vəsaiti hesabına ödənilir. İstehlakçı tərəfindən kanalizasiya sisteminə axıdılan tullantı sularının tərkibindəki çirkləndirici maddələrin miqdarı yol verilən qatılıq həddindən artıq olduqda, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada istehlakçıya ödəmələr hesablanır.

9.5. Mövcud təsərrüfat-məişət kanalizasiya sisteminə qoşulmuş sənaye müəssisəsinin tullantı sularının tərkibində nəzarəti aparılan maddələrin qatılıq həddinin tələblərə uyğun gəlmədiyi müəyyən edilərsə, müəssisənin tullantı sularının yerli (lokal) qurğularda təmizlənməsi vacibdir. Bu halda sənaye müəssisəsi öz vəsaiti hesabına yerli (lokal) təmizləmə qurğularının *layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirinin qiymətləndirilməsini (ƏMTQ) aparmalı və dövlət ekoloji ekspertizasının müsbət rəyi olduğu təqdirdə, həmin qurğuların* STKM ilə razılaşdırılmış layihə üzrə inşasını təmin etməli, dövri, ardıcıl və təkrar su təchizatı sistemlərinin yaradılmasını həyata keçirməlidir.[10]

*9.5-1. İstehsalat və məişət tullantı sularının təmizlənməsi və təkrar istifadəsi üzrə layihələrin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirinin qiymətləndirilməsi aparılır.*

*9.5-2. İstehsalat və məişət tullantı sularının təmizlənməsi və təkrar istifadəsi sahəsində fəaliyyət göstərən mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq dəyişikliklər edilir.*

*9.5-3. İstehsalat və məişət tullantı sularının təmizlənməsi və təkrar istifadəsi sahəsində fəaliyyət göstərən mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.*

*9.5-4. İstehsalat və məişət tullantı sularının təmizlənməsi və təkrar istifadəsi sahəsində fəaliyyət göstərən obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.*[11]

9.6. İstehlakçılar kanalizasiya şəbəkə və qurğularının normal istismarı üçün aşağıdakılara əməl etməlidirlər:

9.6.1. özlərinə məxsus olan kanalizasiya şəbəkələrinin düzgün istismarına və mühafizəsinə;

9.6.2. STKM-in kanalizasiya şəbəkəsindən istifadəyə qoyduğu qadağalara;

9.6.3. istifadə edilmiş tullantı sularının axıdılması üzrə xidmətin dəyərinin vaxtında və tam ödənilməsinə;

9.6.4. suqəbuledici avadanlıqlara bərk əşyaların atılmamasına və zərərli (tezalışan) mayelərin axıdılmamasına;

9.6.5. suqəbuledici avadanlıqların, aidiyyəti üzrə kanalizasiya baxış quyularının normal (normalara uyğun) saxlanılmasına və istismarına;

9.6.6. zirzəmilərdə kanalizasiya dayaqlarının və axıtma borularının sazlığına;

9.6.7. binanın damındakı kanalizasiya dayağına aid ventilyasiya nəfəsliyinin bağlanmamasına.

9.7. İstehlakçılar balanslarında olan kanalizasiya baxış quyularının müvafiq qapaqlarla bağlanmasına və qapaqların mühafizəsinə cavabdehlik daşıyırlar.

9.8. Kanalizasiya şəbəkəsinin quyuları onların baxılması və istismarı üçün daim yararlı vəziyyətdə saxlanılmalı, onların istismarına mane olan əşya və maddələrin toplanmasına yol verilməməlidir.

9.9. STKM müntəzəm olaraq öz balansında olan kanalizasiya şəbəkələrinin yoxlanılması, profilaktikası, yuyulması, təmizlənməsi və təmirini həyata keçirməlidir.

9.10. STKM istehlakçının balansında olan kanalizasiya sisteminə nəzarət etmək hüququna malikdir. İstehlakçılar onların ərazilərində yerləşən, yaxud balanslarında olan kanalizasiya şəbəkə, qurğu və avadanlıqlarına STKM-in səlahiyyətli nümayəndələrinin maneəsiz baxış keçirmələrinə şərait yaratmalıdırlar.

9.11. STKM aşağıdakı hallarda yazılı xəbərdarlıq etdikdən sonra və akt tərtib edərək onun bir nüsxəsini istehlakçıya vermək şərtilə istehlakçını təsərrüfat-məişət kanalizasiya şəbəkəsindən ayırmaq hüququna malikdir:

9.11.1. təsərrüfat-məişət kanalizasiya şəbəkəsinin borularını tezliklə sıradan çıxara biləcək və ya tərkibində tezalışan və işçilərin (xidmət heyətinin) səhhəti üçün təhlükəli maddələr olan, həmçinin təmizlənmə prosesinə zərərli təsir göstərən tullantıların axıdılması aşkar edildikdə;

9.11.2. müəssisənin ərazisində kanalizasiya sisteminin istismarı ilə əlaqədar verilmiş tələblər yerinə yetirilmədikdə;

9.11.3. təsərrüfat-məişət kanalizasiya sisteminə qanunsuz qoşulmalar aşkar edildikdə.

9.12. STKM-inmütəxəssislərindən başqa digər şəxslərə təsərrüfat-məişət və yağış kanalizasiya baxış quyularının qapaqlarını açmaq və quyulara düşmək qəti qadağandır.

9.13. İstehlakçının kanalizasiya sistemindən düzgün istifadə etməməsi nəticəsində kanalizasiya qurğuları sıradan çıxdıqda, onların təmiri və ya tam bərpası istehlakçı tərəfindən təmin edilməlidir. Həmin işlər istehlakçının qüvvəsi ilə STKM-in texniki nəzarəti altında aparıla və ya istehlakçının vəsaiti ilə STKM tərəfindən yerinə yetirilə bilər.

9.14. Sənaye müəssisələrinin kanalizasiya şəbəkəsinin tutulması yaşayış məntəqəsinin kanalizasiya sisteminin vəziyyətini təhlükə altına alırsa, STKM istehlakçının vəsaiti hesabına həmin şəbəkənin təmizlənməsini və normal istismar vəziyyətinə gətirilməsini təmin edir.

9.15. Birləşdirici kanalizasiya qolları yalnız STKM tərəfindən təmizlənməlidir. Bununla əlaqədar birləşdirici kanalizasiya qolları tutulduqda, istehlakçı bu barədə dərhal STKM-ə məlumat verməlidir.

9.16. STKM tərəfindən balansında olmayan kanalizasiya şəbəkələrinin təmizlənməsi və təmiri üzrə sifariş əsasında yerinə yetirilən işlərə görə istehlakçılar STKM-in təqdim etdiyi hesab üzrə vəsait ödəməlidirlər.

9.17. Fiziki şəxs olan istehlakçılar istisna olmaqla, digər istehlakçıların kanalizasiya sisteminə tullantı sularının tərkibindəki yol verilən qatılıq həddindən artıq zərərli və çirkləndirici maddələrin təmizlənməsi üçün STKM-ə müəyyən edilmiş tariflərə uyğun xidmət haqqı ödənilir.

~~*Qeyd. Bu Qaydalarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.*~~ [12]

**"Sudan istifadə Qaydaları"na**
**1 nömrəli əlavə**

**Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan**

**M Ü Q A V İ L Ə**

Bir tərəfdən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin________ (bundan sonra - Müəssisə) rəisi __________________________ şəxsində, digər tərəfdən (bundan sonra - istehlakçı) ________________________ şəxsində Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 723-IQ nömrəli "Su təchizatı və tullantı suları haqqında" Qanununa (bundan sonra - Qanun) və "Sudan istifadə Qaydaları"na (bundan sonra - Qaydalar) uyğun olaraq bu Müqaviləni bağladılar.

**1. Müqavilənin predmeti**

1.1. Bu Müqavilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin su təchizatı sistemindən istehlakçının tələbatına uyğun lazımi miqdarda, tərkib və keyfiyyətinə görə DÜİST2874-82-№-li Dövlət Standartının tələblərinə uyğun içməli suyun buraxılması, tullantı sularının kanalizasiya sisteminə qəbulu, təmizlənməsi və axıdılması ilə əlaqədar tərəflərin hüquq və öhdəliklərini müəyyən edir.

**2. Ödəniş şərtləri**

2.1. İstehlakçının istifadə etdiyi içməli suyun və axıdılmış tullantı sularının ödəniş üçün həcmi (miqdarı) su xəttinin giriş nöqtəsində quraşdırılmış ölçmə cihazının (su sayğacı) göstəricilərinə görə, sayğac olmadıqda və ya nasaz olduqda isə qüvvədə olan normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada təyin edilir.

2.2. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sudan istifadə və tullantı sularının axıdılması xidmətləri üzrə istehlakçı qruplarının tariflərinin və təsnifatının təsdiq edilməsi barədə" qərarına uyğun olaraq istehlakçının istifadə etdiyi 1m$^3$ içməli suya görə hesablaşma ƏDV ilə ________ _________manat və istehlakçıdan qəbul edilən 1m$^3$ tullantı suyuna görə hesablaşma ƏDV ilə ______________manat müqabilində aparılır.

2.3. Həyətyanı torpaq sahəsi olan fərdi yaşayış evlərində yaşayan istehlakçılar sayğac olmadıqda, təyin olunmuş normadan artıq istifadə olunan suya görə (həyətyanı sahənin suvarılması və s. ) müəyyən edilmiş qaydada əlavə haqq ödəyirlər.

2.4. Tariflər dəyişdikdə, Müəssisə bu barədə *media* ilə istehlakçıya məlumat verir. [13]

**3. Müəssisənin hüquq və öhdəlikləri**

3.1. Müəssisə istehlakçını tələbatına uyğun içməli su ilə təmin edir və tullantı sularının fasiləsiz qəbulunu həyata keçirir.

3.2. Müəssisə özünün təqsiri üzündən baş verən hadisələr istisna olmaqla, magistral su kəmərindən istehlakçının daxili şəbəkəsinə verildikdən sonra suyun keyfiyyətinin dəyişməsinə görə məsuliyyət daşımır.

3.3. Müəssisə istehlakçının su təchizatını texniki şərtlərə uyğun paylayıcı şəbəkəyə qoşulmuş diametri d= _________mm olan boru (birləşmə) vasitəsilə həyata keçirir.

3.4. Qanunun 26-cı və 62-ci maddələrində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada, *bu Müqavilənin 3.4.7-ci yarımbəndindəki hal istisna olmaqla* əvvəlcədən xəbərdar etməklə, istehlakçının su təchizatını aşağıdakı hallarda dayandırmaq hüququna malikdir: [14]

3.4.1. məişət-içməli məqsədlər üçün nəzərdə tutulmuş sudan digər məqsədlər üçün istifadə olunduqda;

3.4.2. su təchizatının dayandırılmasını tələb edən təmir-tikinti, profilaktika, qəzanın nəticələrinin aradan qaldırılması işləri aparıldıqda, su tutarlarının (anbarların) təmizlənməsinə ehtiyac yarandıqda, içməli suyun bulanıqlıq dərəcəsi artdıqda;

3.4.3. Müəssisənin istehlakçıya verdiyi suyun haqqı hesab təqdim edildiyi (göndərildiyi) gündən sonra 1 (bir) ay müddətində tam məbləğdə ödənilmədikdə;

3.4.4. istehlakçı tərəfindən qoşulma bu Müqavilənin 3.3-cü bəndinə zidd aparıldıqda;

3.4.5. Müəssisənin səlahiyyətli nümayəndəsinə bu Müqavilənin tələblərinin icrasına nəzarət olunması və müqavilədə nəzərdə tutulmuş digər tədbirlərin görülməsinə istehlakçı tərəfindən maneələr yaradıldıqda;

3.4.6. istehlakçının yazılı xahişi olduqda;

*3.4.7. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin göstərişləri əsasında.* [15]

3.5. Müəssisə sudan israfçılıqla istifadə nəticəsində vurulmuş ziyana görə, Qanunun 65-ci və 72-ci maddələrinə əsasən istehlakçıdan zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

3.6. Baş vermiş təbii fəlakət, qəza nəticəsində yaranacaq fasilələr zamanı *, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar* içməli və təsərrüfat məqsədli suların təchizatının dayandırılması nəticəsində istehlakçıya dəyən ziyana görə Müəssisə cavabdehlik daşımır. [16]

3.7. İstehlakçının öz adına birdən çox müqaviləsi olduğu təqdirdə, onun bir ünvanda olan borcuna görə

borcu olmayan digər ünvanlarındakı su təchizatı da dayandırıla bilər.

3.8. Bu Müqavilənin 3.4-cü bəndinin (*3.4.2-ci və 3.4.7-ci yarımbəndlər* istisna olmaqla) tələblərinə uyğun olaraq, su təchizatı tam dayandırılarsa, şəbəkəyə birləşmənin ləğv edilməsi ilə suyun kəsilməsinə və yenidən bərpasına çəkilən əlavə xərclər də daxil olmaqla, bütün borclar istehlakçı tərəfindən tam ödənildikdən sonra su təchizatı bərpa olunur. [17]

### 4. İstehlakçının hüquq və öhdəlikləri

4.1. İstehlakçı "Azərsu" ASC tərəfindən verilmiş texniki şərtə əsasən su təchizatı və kanalizasiya sistemlərinə qoşularaq, tələbatına görə, keyfiyyət standartlarına uyğun içməli su ilə təmin olunmaq və tullantı sularının kanalizasiya sisteminə fasiləsiz axıdılmasını (qəbulunu) Müəssisədən tələb etmək hüququna malikdir.

4.2. İstehlakçı Müəssisə tərəfindən satılmış suyun və göstərilmiş xidmətlərin haqqını 1 (bir) ay müddətində bank, poçt, internet və ya POS-terminallar vasitəsilə ödəyir.

4.3. İstehlakçı istifadə olunmuş suyun və axıdılmış tullantı sularının dəyərini vaxtında ödəmədikdə, ödənişin gecikdirildiyi hər gün üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 445.1-ci, 449.1-ci və 449.2-ci maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən olunmuş qaydada, ümumi məbləğin ______ faizi miqdarında müamilə (dəbbə) haqqı ödəməlidir.

4.4. Müəssisə tərəfindən ölçü cihazlarına, siyirtmələrə, hidrantlara və digər tənzimləyicilərə vurulmuş möhürlərin (plombların) bütövlüyünü təmin edir, onları daim işlək vəziyyətdə saxlayır, hər cür hava şəraitinin təsirindən (mexaniki zərbə, yağış, toz, donma və birbaşa günəş şüalarına məruz qalma və s.) qorunması üçün lazımi tədbirlər görür, Qaydaların tələblərinə uyğun ölçü cihazlarını texniki pasportlarında göstərilən müddətdə və digər hallarda dövlət yoxlamasından keçirir.

4.5. Ölçü cihazlarının və tənzimləyicilərin işində qüsurlar yarandıqda və yaxud sıradan çıxdıqda, vurulmuş plomblar pozulduqda, istehlakçı Müəssisəyə növbəti iş günündən gec olmayaraq məlumat verir.

4.6. İstehlakçı hüquqtəsdiqedici sənəd (xidməti vəsiqə və s.) əsasında, Müəssisənin səlahiyyətli nümayəndəsinin, vəzifə borclarını yerinə yetirmək üçün, maneəsiz olaraq özünə məxsus əraziyə (binaya, həyətə və s.) buraxılmasını təmin edir.

### 5. Müqavilənin ləğv edilməsi

5.1. Bu Müqaviləyə dəyişiklik və əlavələr Müəssisə və istehlakçı tərəfindən təsdiq edilmiş əlavə razılaşma ilə həyata keçirilir.

5.2. Bu Müqavilə tərəflərdən birinin yazılı təşəbbüsü əsasında vaxtından əvvəl ləğv edilə bilər. Yazılı təşəbbüs daxil olduğu vaxtdan 1 (bir) ay müddətində istehlakçı borcunu tam ödədikdə müqavilə ləğv edilmiş hesab olunur.

5.3. Tərəflər arasında sudan istifadə və kanalizasiya xidmətinə görə mübahisəli məsələlər yarandıqda, mübahisə aidiyyətı üzrə məhkəmə qaydasında həll edilir.

### 6. Müqavilənin müddəti

6.1. Müqavilə qüvvəyə minir: "_____"_________________________ 201______il.

6.2. Tərəflərdən biri Müqavilənin ləğv edilməsi barədə yazılı təşəbbüs göstərmədikdə, bu Müqavilənin müddəti hər növbəti il üçün uzadılmış hesab olunur. Növbəti illərdə yeni Müqavilənin bağlanması ilə bu Müqavilə qüvvədən düşmüş hesab edilir.

6.3. Bu Müqavilə tərəflərin hər birində 1 (bir) nüsxə olmaqla, eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib edilmişdir.

6.4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tarif (qiymət) dəyişdirilərsə, bu Müqavilənin 2.5-ci bəndi Müəssisə tərəfindən icra olunmaqla, hesabat Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarının qüvvəyə mindiyi tarixdən, yeni tarifə (qiymətə) uyğun aparılır və Müqavilə öz qüvvəsində qalır.

### 7. Tərəflərin hüquqi ünvanları və bank rekvizitləri

| | |
|---|---|
| "Azərsu" Açıq Səhmdar Cəmiyyəti | "İSTEHLAKÇI" |
| Bakı şəhəri, AZ1012, Moskva pr.67 | ____________________________________ |
| h/h AZ65AİİB33070019441100216111, | ____________________________________ |
| VÖEN-9900001751M/h0137010001944 | ____________________________________ |
| "Kapital Bank"ın 1 №-li Nəsimi filialı | ____________________________________ |
| Kod: 200112 | ____________________________________ |
| VÖEN-9900003611 | ____________________________________ |
| ____________________________________ (müəssisənin adı) | |
| tel.:_________________________________ | tel.:_________________________________ |
| rəisi _______________________________ (SKİ-nin rəisinin adı, soyadı, atasının adı) | ____________________________________ (istehlakçının adı, soyadı, atasının adı) |
| M.Y. | |

**"Sudan istifadə Qaydaları"na 2 nömrəli əlavə**

**Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanan**

**MÜQAVİLƏ**

Bir tərəfdən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin, ____________ (bundan sonra – Müəssisə) rəisi _________________________ şəxsində, digər tərəfdən (bundan sonra – istehlakçı) __________________şəxsində, Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 723-IQ saylı “Su təchizatı və tullantı suları haqqında” Qanununa (bundan sonra - Qanun) və “Sudan istifadə Qaydaları”na (bundan sonra - Qaydalar) uyğun olaraq bu Müqaviləni bağladılar.

**1. Müqavilənin predmeti**

1.1. Bu Müqavilə Müəssisənin su təchizatı sistemindən istehlakçının tələbatına uyğun lazımi miqdarda, tərkib və keyfiyyətinə görə DÜİST2874-82 Dövlət Standartının tələblərinə uyğun, məişət (təsərrüfat) - içməli və istehsalat məqsədli suyun təchizatı, tullantı sularının kanalizasiya sisteminə qəbulu, təmizlənməsi və axıdılması ilə əlaqədar tərəflərin hüquq və öhdəliklərini müəyyən edir.

**2. Ödəniş şərtləri**

2.1. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin “Sudan istifadə və tullantı sularının axıdılması xidmətləri üzrə istehlakçı qruplarının tariflərinin və təsnifatının təsdiq edilməsi barədə” qərarına uyğun olaraq istehlakçı tərəfindən istifadə edilmiş 1 $m^3$ xammal suya görə hesablaşma ƏDV ilə_____________ manat, digər məqsədlər üçün istifadəyə görə hesablaşma 1 $m^3$ su üçün ƏDV ilə______________ manat və istehlakçıdan qəbul edilmiş 1 $m^3$ tullantı suyuna görə hesablaşma ƏDV ilə ___________________ manat müqabilində müəyyən edilir.

2.2. Su təchizatı və tullantı sularının axıdılma xidmətinin qiyməti Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən tənzimləndiyindən, bu Müqavilə bağlandıqdan sora qiymət dəyişiklliyi tərəflər arasında mübahisələndirilə bilməz və hər iki tərəf üçün məcburidir.

2.3. Müəssisə ayda 1 dəfədən az olmayaraq (smart-kart tipli sayğaclar istisna olmaqla) istehlakçı tərəfindən istifadə edilmiş suyun və axıdılmış çirkab suyun hesabatını aparır və müvafiq qaydada tərtib edilmiş ödəniş sənədini istehlakçıya təqdim edir.

2.4. Hesab istehlakçıya Müəssisə tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bank, poçt, internet və ya POS-terminallar vasitəsilə 1 (bir) ay müddətində tam ödənilməlidir.

**3. Müəssisənin hüquq və öhdəlikləri**

3.1. Müəssisə istehlakçının tələbatına uyğun məişət (təsərrüfat) - içməli və istehsalat məqsədli su ilə təmin edir və tullantı sularının fasiləsiz qəbulunu həyata keçirir.

3.2. Müəssisə özünün təqsiri üzündən baş verən hadisələr istisna olunmaqla, magistral su kəmərindən istehlakçının daxili şəbəkəsinə verildikdən sonra suyun keyfiyyətinin dəyişməsinə görə məsuliyyət daşımır.

3.3. Müəssisə istehlakçının su təchizatını texniki şərtlərə uyğun magistral su xəttinə və paylayıcı şəbəkəyə qoşulmuş diametri d=_________________ mm olan boru (birləşmə) vasitəsilə həyata keçirir.

3.4. Müəssisə istehlakçının istifadə etdiyi suyun və axıdılmış tullantı sularının həcmi su xəttinin giriş nöqtəsində quraşdırılmış ölçmə cihazının (su sayğacı) göstəricilərinə görə, sayğac olmadıqda və ya nasaz olduqda isə Qaydaların 7.2-ci, 7.4-cü və 7.5-ci bəndlərinə uyğun təyin edir.

3.5. Axıdılmış tullantı sularının miqdarı təyin edilərkən istifadə olunmuş quyu, yeraltı qrunt və gətirmə sular da nəzərə alınır.

3.6. Axıdılan tullantı sularının miqdarı işlədilmiş suyun miqdarına uyğun olmadıqda, Müəssisə axıdılan tullantı sularının həcmini hesablamaq üçün “Su təsərrüfatı pasportu”nu istehlakçıdan tələb edir.

3.7. Müəssisə Qanunun 26-cı və 62-ci maddələrində, digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada, istehlakçının su təchizatını aşağıdakı hallarda dayandırmaq hüququna malikdir:

3.7.1. istehlakçının müvafiq yazılı müraciəti olduqda;

3.7.2. tikinti, təmir-profilaktika, qəza işlərinin görülməsinə və su tutarlarının (anbarların) təmizlənməsinə ehtiyac yarandıqda;

3.7.3. su götürülən yerlərdə səth sularının bulanıqlığı artdıqda və ya su hövzəsində fövqəladə ekoloji böhran vəziyyəti yarandıqda;

3.7.4. istehlakçının paylayıcı su kəmərləri şəbəkəsi, su tutarları (su anbarları), qoşulmalar, siyirtmələr, kranlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət standartlarının tələblərinə cavab vermədikdə;

3.7.5. Müəssisənin istehlakçıya verdiyi suyun haqqı hesab təqdim edildiyi (göndərildiyi) gündən sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə;

3.7.6. Müəssisənin səlahiyyətli nümayəndəsinə bu Müqavilənin tələblərinin pozulması hallarının qarşısının alınması və müqavilədə nəzərdə tutulmuş digər tədbirlərin görülməsinə istehlakçı tərəfindən maneələr yaradıldıqda;

3.7.7. məişət (təsərrüfat) - içməli su ehtiyacları üçün nəzərdə tutulmuş sudan digər məqsədlərlə istifadə olunduqda;

3.7.8. Müəssisə ilə müvafiq müqavilə bağlanmadıqda;

3.7.9. məhkəmənin qərarı ilə;

*3.7.10. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin göstərişləri əsasında.*[18]

3.8. Müəssisə, müstəsna hallarda müqavilədə lazımi dəyişiklik etməklə, Qaydaların şərtləri daxilində istehlakçının su təchizatı və kanalizasiya xətlərinə digər fiziki və hüquqi şəxslərin qoşulmasına icazə verir.

3.9. İstehlakçının öz adına birdən çox müqaviləsi olduğu təqdirdə, bir ünvanda olan borcuna görə borcu olmayan digər ünvanlarındakı su təchizatı da dayandırıla bilər.

**4. İstehlakçının hüquq və öhdəlikləri**

4.1. İstehlakçının aşağıdakı hüquq və öhdəlikləri vardır:

4.1.1. Müəssisə tərəfindən göstərilmiş su təchizatı və kanalizasiya xidmətlərinin haqqını təqdim olunmuş hesab-fakturaya əsasən ödəyir;

4.1.2. istehlakçı istifadə olunmuş suyun və axıdılmış tullantı sularının dəyərini vaxtında ödəmədikdə, ödənişin gecikdirildiyi hər gün üçün, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 445.1-ci, 449.1-ci və 449.2-ci maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən olunmuş qaydada, ümumi məbləğin _____ faizi miqdarında müamilə (dəbbə) haqqı ödəməlidir;

4.1.3. istehlakçı sudan xammal kimi istifadə etdikdə, xammal istifadəsi üzrə su sərfinin dəqiqliyini təmin etmək üçün xammala gedən su xətlərinin əvvəlinə suölçən cihazların Müəssisə ilə razılaşdırılmış qaydada qoyulmasını təmin edir;

4.1.4. balansında və ya ərazisində olan su təchizatı və kanalizasiya şəbəkə və qurğularının vəziyyəti və istismarı üçün məsuliyyət daşıyır;

4.1.5. Müəssisə tərəfindən ölçü cihazlarına, siyirtmələrə, hidrantlara və digər tənzimləyicilərə vurulmuş möhürlərin (plombların) bütövlüyünü təmin edir, onları daim işlək vəziyyətdə saxlayır, hər cür hava şəraitinin təsirindən (mexaniki zərbə, yağış, toz, donma və birbaşa günəş şüalarına məruz qalma və s.) qorunması üçün lazımi tədbirlər görür, Qaydaların tələblərinə uyğun ölçü cihazlarını texniki pasportlarında göstərilən müddətdə və digər hallarda dövlət yoxlamasından keçirir;

4.1.6. ölçü cihazlarının və tənzimləyicilərin işində qüsurlar yarandıqda və yaxud sıradan çıxdıqda, vurulmuş plomblar pozulduqda, növbəti iş günündən gec olmayaraq Müəssisəyə məlumat verir;

4.1.7. ölçü cihazlarının və tənzimləyicilərin yerinin dəyişdirilməsinə ehtiyac yarandıqda bunu qabaqcadan Müəssisə ilə razılaşdırır. Ölçü cihazlarına və tənzimləyicilərə vurulmuş plomblar pozularsa (yanğın, qəza və digər təcili tədbirlər görülməsi vacib olan hallar istisna olmaqla) həmin hesabat ayında su və kanalizasiya sərfi bu Müqavilənin 3.4-cü bəndinə uyğun hesablanır;

4.1.8. hüquq təsdiqedici sənəd (xidməti vəsiqə və s.) əsasında, Müəssisənin səlahiyyətli nümayəndəsinin, vəzifə borclarını yerinə yetirmək üçün, maneəsiz olaraq istehlakçıya məxsus əraziyə (binaya, həyətə və s.) buraxılmasını təmin edir;

4.1.9. adında, hüquqi ünvanında, fəaliyyət növündə, bank rekvizitlərində dəyişiklik olduqda, ləğv olunması barədə qərar verildikdə bu barədə Müəssisəyə məlumat verir və tərəflərdən birinin tələbi ilə qarşılıqlı borclar barədə üzləşmə aktını tərtib və təsdiq edir;

4.1.10. Təbii fəlakət, elektrik enerjisinin kəsilməsi, qəza nəticəsində su təchizatında yaranacaq fasilələr zamanı, tələbatını təmin etmək üçün 3 (üç) günlük su ehtiyatı yaradır;

4.1.11. aldığı suyu Müəssisə ilə razılaşdırmadan 3-cü şəxsə vermir və alqı-satqısını həyata keçirmir;

4.1.12. "Azərsu" ASC tərəfindən verilmiş texniki şərtlər əsasında su təchizatı və kanalizasiya sistemlərinə qoşulmaq;

4.1.13. tələbatına görə keyfiyyət standartlarına uyğun məişət (təsərrüfat)-içməli su ilə təmin olunmaq;

4.1.14. tullantı sularının kanalizasiya sisteminə fasiləsiz axıdılmasının təmin edilməsini Müəssisədən tələb etmək;

4.1.15. ödəniş etmək üçün müvafiq qaydada ödəniş sənədlərinin təqdim olunmasını Müəssisədən tələb etmək;

4.1.16. istehsalat zəruriyyəti ilə əlaqədar sudan təkrar istifadə etmək.

## 5. Xüsusi şərt

5.1. Müəssisə istehlakçının kanalizasiya sisteminə axıtdığı tullantı sularının tərkibinə (analizlər vasitəsilə) daim nəzarət edir. Limitdən artıq çirkləndirici maddələrin tullantı sularının tərkibində ətraf mühitə axıdılması aşkar edilərsə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli qərarına uyğun olaraq istehlakçıdan əlavə "Çirkləndirici maddələrin axıdılmasına görə ödəmə" alır.

5.2. Bu Müqavilənin 3.7-ci bəndinin (3.7.2-ci, 3.7.3-cü, *3.7.9-cu və 3.7.10-cu* yarımbəndlər istisna olmaqla) tələblərinə uyğun olaraq, su təchizatı tam dayandırılarsa, şəbəkəyə birləşmənin ləğv edilməsi ilə suyun kəsilməsinə və yenidən bərpasına çəkilən əlavə xərclər də daxil olmaqla, bütün borclar istehlakçı tərəfindən tam ödənildikdən sonra su təchizatı bərpa olunur.[19]

5.3. Tərəflər müqavilədə nəzərdə tutulmuş öhdəliklərin hər bir pozuntusu üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 443.1-ci, 443.5-ci və 448.2-ci maddələrinə uyğun qarşılıqlı məsuliyyət daşıyırlar;

5.4. Bu Müqavilənin icrası ilə əlaqədar tərəflər arasında yaranan mübahisəli məsələlər qüvvədə olan normativ hüquqi aktlarla öz həllini tapmadıqda, həmin mübahisəli məsələlərə Azərbaycan Respublikasının ~~İqtisad~~ məhkəmələrində baxılır.[20]

5.5. Bu Müqaviləyə dəyişiklik və əlavələr Müəssisə və istehlakçı tərəfindən təsdiq edilmiş əlavə razılaşma ilə həyata keçirilir.

5.6. Bu Müqavilə tərəflərin yazılı təşəbbüsü əsasında vaxtından əvvəl ləğv edilə bilər. Tərəflərin yazılı təşəbbüsü daxil olduğu vaxtdan bir ay müddətində istehlakçı borcunu tam ödədikdə müqavilə ləğv edilmiş hesab olunur.

## 6. Müqavilənin müddəti

6.1. Müqavilə qüvvəyə minir: "_______"__________201______ il.

6.2. Müqavilə qüvvədədir: " ________"_________ 201_____ ilədək.

6.3. Müqavilənin qüvvədə olma müddətinin başa çatmasına 1 (bir) ay qalmış tərəflərdən biri müqavilənin ləğv edilməsi barədə yazılı təşəbbüs göstərmədikdə, bu Müqavilənin müddəti növbəti 3 (üç) il üçün uzaldılmış hesab olunur.

6.4. Bu Müqavilə tərəflərin hər birində 1 (bir) nüsxə olmaqla eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib edilmişdir.

## 7. Tərəflərin hüquqi ünvanları və bank rekvizitləri

| | |
|---|---|
| "Azərsu" Açıq Səhmdar Cəmiyyəti | "İSTEHLAKÇI" |
| Bakı şəhəri, AZ1012, Moskva pr.67 | ____________________ |
| h/h AZ65AİİB33070019441100216111, | ____________________ |
| VÖEN-9900001751 | ____________________ |
| M/h0137010001944 | ____________________ |
| "Kapital Bank"ın 1 №-li Nəsimi filialı | ____________________ |
| Kod: 200112 | ____________________ |
| VÖEN-9900003611 | ____________________ |

_______________________________________ _______________________________________
(müəssisənin adı)

tel.:_________________________________________ tel.:_________________________________________

**M.Y.** **M.Y.**

rəisi__________________________________________ _________________________________________________
(SKİ-nin rəisinin adı, soyadı, atasının adı) (müəssisənin rəhbərinin adı, soyadı, atasının adı)

**“Sudan istifadə Qaydaları”na 3 nömrəli əlavə**

## Su təchizatı və kanalizasiya müəssisəsi və istehlakçı arasında su təchizatı və kanalizasiya sisteminin balans mənsubiyyət sərhədini müəyyən edən

## AKT

“_____” __________ 20___ il ___________________ şəhər (rayon)

Biz, aşağıda imza edənlər _____________________________________________________
_______________________________________________________________________________________
(su təchizatı və kanalizasiya müəssisəsi adından)
_______________________________________________________________________________________
_______________________________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)
_______________________________________________________________________________________
şəxsində və _________________________________________________________________________
_______________________________________________________________________________________
(istehlakçı əhali qrupuna aiddirsə, soyadı, adı, atasının adı, digər qrupa aiddirsə, həmçinin vəzifəsi, müəssisənin və ya obyektin adı)

şəxsində Tərəflər arasında su təchizatı və tullantı sularının axıdılması sisteminin balans mənsubiyyəti sərhədini aşağıdakı kimi müəyyən edirik:
_______________________________________________________________________________________
_______________________________________________________________________________________
_______________________________________________________________________________________
(su təchizatı və tullantı sularının axıdılması sisteminin balans mənsubiyyəti sərhədi müəyyən olunmuş yer)

**İmzalar:**

____________________ _________________________

____________________ _________________________

(soyadı, adı) (soyadı, adı)

**M.Y.** **M.Y.**

**“Sudan istifadə Qaydaları”na 4 nömrəli əlavə**

## Su təchizatı və kanalizasiya xidmətlərindən qeyri-qanuni istifadənin həcminin müəyyən edilməsi

## CƏDVƏLİ

| Sıra №-si | Borunun iç diametri, mm | Saatlıq su sərfi (1,0 m/san), m3 | Büdcə və büdcəyə bərabər tutulan təşkilatlar üzrə | | | | Kommersiyayönlü təşkilatlar üzrə | | | | Əhali qrupu üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | saat | iş günlərinin sayı | aylıq sərfiyyat, m3 | 3 aylıq sərfiyyat, m3 | saat | iş günlərinin sayı | aylıq sərfiyyat, m3 | 3 aylıq sərfiyyat, m3 | ailə tərkibi, (nəfərlə) | 1 nəfərə düşən aylıq norma, m3 | aylıq sərfiyyat, m3 | 3 aylıq sərfiyyat, m3 |
| 1 | d=15 | 0,61 | 5 | 22 | 67 | 201 | 5 | 30 | 92 | 276 | 4 | 5 | 20 | 60 |
| 2. | d=20 | 1,14 | 5 | 22 | 125 | 375 | 5 | 30 | 171 | 513 | 4 | 5 | 20 | 60 |
| 3. | d=25 | 1,94 | 5 | 22 | 213 | 639 | 5 | 30 | 291 | 873 | 4 | 5 | 20 | 60 |
| 4. | d=32 | 3,44 | 5 | 22 | 378 | 1134 | 5 | 30 | 516 | 1548 | 4 | 5 | 20 | 60 |
| 5. | d=40 | 4,54 | 5 | 22 | 499 | 1497 | 5 | 30 | 681 | 2043 | | | | |
| 6. | d=50 | 7,63 | 5 | 22 | 839 | 2517 | 5 | 30 | 1145 | 3435 | | | | |
| 7. | d=80 | 19,26 | 5 | 22 | 2119 | 6357 | 5 | 30 | 2889 | 8667 | | | | |
| 8. | d=100 | 30,60 | 5 | 22 | 3366 | 10098 | 5 | 30 | 4590 | 13770 | | | | |
| 9. | d=125 | 47,70 | 5 | 22 | 5247 | 15741 | 5 | 30 | 7155 | 21465 | | | | |
| 10. | d=150 | 67,86 | 5 | 22 | 7465 | 22395 | 5 | 30 | 10179 | 30537 | | | | |
| 11. | d-200 | 123,30 | 5 | 22 | 13563 | 40689 | 5 | 30 | 18495 | 55485 | | | | |

**Qeydlər:** 1. Sudan xammal kimi istifadə edən müəssisələrdə xammal sudan istifadə müddəti 4 saat qəbul edilir.
2. Qrunt suyundan istifadə etməklə, tullantı sularının kanalizasiya şəbəkəsinə axıdılma müddəti 4 saat qəbul edilir.
3. Su təchizatı sisteminə qanunsuz (özbaşına) qoşulma aşkar edildikdə və belə qoşulmanın tarixini müəyyən etmək mümkün olmadıqda, itirilmiş suyun həcmi olaraq ötən 1 (bir) il müddətindən yuxarıdakı cədvələ əsasən hesablanır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)**
2. 22 sentyabr 2018-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 sentyabr 2018-ci il, № 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9, maddə 1939)**
3. 7 fevral 2020-ci il tarixli **35** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 fevral 2020-ci il, № 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 186)**
4. 29 iyun 2020-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 6, maddə 815)**
5. 16 fevral 2022-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 19 fevral 2022-ci il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 168)**
6. 26 fevral 2022-ci il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 185)**
7. 10 oktyabr 2023-cü il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 11 oktyabr 2023-cü il, "Xalq" qəzeti, 12 oktyabr 2023-cü il, № 222)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 26 fevral 2022-ci il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 185)** ilə qərarın ikinci abzası 1-ci hissə hesab edilmişdir və yeni məzmunda 2-ci hissə əlavə edilmişdir.

[2] 16 fevral 2022-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 19 fevral 2022-ci il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 168)** ilə "Sudan istifadə Qaydaları"na yeni məzmunda 2.2-ci bənd əlavə edilmişdir.

[3] 22 sentyabr 2018-ci il tarixli **411** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 sentyabr 2018-ci il, № 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9, maddə 1939)** ilə "Sudan istifadə Qaydaları"nın 6.1-ci bəndində "**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – SMPDK)**" sözləri "**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – AİBNDA)**" sözləri ilə, 6.1-ci, 6.6-cı, 6.15-ci bəndlərində və 6.15.2-ci yarımbəndində "**SMPDK-nın**" akronimi "**AİBNDA-nın**" akronimi ilə əvəz edilmişdir.

26 fevral 2022-ci il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 185)** ilə "Sudan istifadə Qaydaları"nın 6.1-ci bəndində "**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – AİBNDA)**" sözləri "**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)**" sözləri ilə və həmin bənddə "**AİBNDA-nın**" sözü "**Xidmətin**" sözü ilə əvəz edilmişdir.

[4] 26 fevral 2022-ci il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 185)** ilə "Sudan istifadə Qaydaları"nın 6.1-ci, 6.6-cı, 6.15-ci bəndlərdə və 6.15.2-ci yarım-bənddə "**AİBNDA-nın**" sözü "**Xidmətin**" sözü ilə əvəz edilmişdir.

[5] 16 fevral 2022-ci il tarixli **44** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 19 fevral 2022-ci il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 168)** ilə "Sudan istifadə Qaydaları"na yeni məzmunda 6.18-ci bənd əlavə edilmişdir.

[6] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 8.1-ci bəndində "**mütləq qaydada**" sözlərindən sonra "(**bu Qaydaların 8.1.9-cu yarımbəndində nəzərdə tutulan hal istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

[7] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 8.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 8.1.9-cu yarımbənd əlavə edilmişdir.

[8] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 8.2-ci bəndin birinci cümləsinə "**dayandırılması**" sözündən sonra "**(dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar dayandırma halı istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[9] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 8.9-cu bəndində "**8.1.2-ci yarımbəndi**" sözləri "**8.1.2-ci və 8.1.9-cu yarımbəndləri**" sözləri ilə əvəz edilmişdir.

[10] 7 fevral 2020-ci il tarixli **35** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 fevral 2020-ci il, № 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 186)** ilə "Sudan istifadə Qaydaları"nın 9.5-ci bəndinin ikinci cümləsinə "**qurğularının**" sözündən sonra "**layihələrinin "ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirinin qiymətləndirilməsini (ƏMTQ) aparmalı və dövlət ekoloji ekspertizasının müsbət rəyi olduğu təqdirdə, həmin qurğuların**" sözləri əlavə edilmişdir.

[11] 7 fevral 2020-ci il tarixli **35** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 fevral**

**2020-ci il, № 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 2, maddə 186)** ilə "Sudan istifadə Qaydaları"na yeni məzmunda 9.5-1-9.5-4-cü bəndlər əlavə edilmişdir.

[12] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 9.17-ci bəndindən sonra yeni məzmunda "Qeyd" əlavə edilmişdir.

26 fevral 2022-ci il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 mart 2022-ci il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 2, maddə 185)** ilə "Sudan istifadə Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilmişdir.

[13] 10 oktyabr 2023-cü il tarixli **363** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 11 oktyabr 2023-cü il, "Xalq" qəzeti, 12 oktyabr 2023-cü il, № 222)** ilə "Sudan istifadə Qaydaları"na 1 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan Müqavilə"nin 2.4-cü bəndində "**mətbuat, radio-televiziya və digər kütləvi informasiya vasitələri**" sözləri "**media**" sözü ilə əvəz edilmişdir.

[14] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 1 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 3.4-cü bəndində "**qaydada**," sözündən sonra "**bu Müqavilənin 3.4.7-ci yarımbəndindəki hal istisna olmaqla**" sözləri əlavə edilmişdir.

[15] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 1 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 3.4.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.4.7-ci yarımbənd əlavə edilmişdir.

[16] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 1 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 3.6-cı bəndə "**zamanı**" sözündən sonra "**, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar**" sözləri əlavə edilmişdir.

[17] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 1 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 3.8-ci bəndində "**3.4.2-ci yarımbənd**" sözləri "**3.4.2-ci və 3.4.7-ci yarımbəndlər**" sözləri ilə əvəz edilmişdir.

[18] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 2 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 3.7.9-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.7.10-cu yarımbənd əlavə edilmişdir.

[19] 7 iyul 2017-ci il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 11 iyul 2017-ci il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1480)** ilə "Sudan istifadə Qaydaları"nın 2 nömrəli əlavə – "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 5.2-ci bəndində "**və 3.7.9-cu**" sözləri "**, 3.7.9-cu və 3.7.10-cu**" sözləri ilə əvəz edilmişdir.

[20] 29 iyun 2020-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyul 2020-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 6, maddə 815**) ilə "Sudan istifadə Qaydaları"na 2 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanılan Müqavilə"nin 5.4-cü bəndindən "**İqtisad**" sözü çıxarılmışdır.